# Ömür axar, dönər çaya

**Mənbəyini dağlar qoynundan alıb coşub-çağlayaraq mənsəbinə tərəf axan, keçdiyi uzun yollarda quru səhraları yaşıl ormanlara, barlı-bərəkətli bağlara, kəhrəba sünbüllü zəmilərə çevirən və son mənzilinə - mənsəbinə çatıb sakitləşən dağ çayına bənzəyir insan ömrü. Xüsusilə də, müəllim ömrü.**

Belə insanlardan biri ömrünü müəllimlik peşəsinə bağlayan və yaşamağın mənasını gənclərimizə elm, savad, mədəniyyət öyrədib vətənə layiq övlad kimi yetişdirməkdə görən Nazim Mirzə haqqında söz açmaq niyyətindəyəm.

Nazim Xancan oğlu Mirzə 1938-ci il avqustun 5-də İsmayıllı rayonunun Xanagah kəndində, müəllim ailəsində dünyaya göz açıb. Alın yazısı insan taleyinin coğrafi, iqtisadi və siyasi xəritəsidir, deyib müdriklərimiz. Nazim müəllimin də taleyinə keşməkeşli, ağır həyat yaşamaq yazılıb. 1955-ci ildə İsmayıllı qəsəbə orta məktəbini bitirib. Hələ orta məktəbdə oxuyarkən ilboyu ev işlərində valideynlərinə kömək edən, yay tətillərində isə kolxoz işlərinə gedərək əmək günü qazanıb evə qazanc gətirən Nazim orta məktəbi bitirəndən sonra, 1955-1957-ci illərdə Yeni Bakı Neftayırma Zavodunda fəhlə işləyib. Daha sonra 3 il o zamankı hərbi xidmətin ən ağır sahəsində - dəniz sərhəd qoşunlarında topçu kimi xidmət edib.

Hərbi xidmətdən əsl əsgər kimi - rütbəli, fəxri-fərmanlı və tərifnamə ilə qayıdan Nazimin ən böyük arzusu atası kimi müəllim olmaq idi. Və elə buna görə də sənədlərini ozamankı M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutuna verir. Hərbi xidmət illərində rus dilini mükəmməl öyrənməsi qəbul zamanı onun köməyinə çatır. Bu ali məktəbə qəbul olaraq yaxşı tələbə kimi müəllim heyətinin hörmətini qazanır. Həmin ali məktəbi əla qiymətlərlə bitirdikdən sonra doğma rayonu İsmayıllı rayonunun 1 nömrəli orta məktəbinin rus şöbəsində tarix və coğrafiya müəllimi kimi əmək fəaliyyətinə başlayır. Daha sonra həmin rayonun 2 nömrəli qəsəbə orta məktəbində rus dili və ədəbiyyat müəllimi işləyir. Müəllim kimi fəaliyyət göstərdiyi qısa müddət ərzində şagirdlərinin, valideynlərin, müəllim yoldaşlarının və rayonda ümumi pedaqoji kollektivin dərin hörmətini qazanan Nazim müəllim vaxtilə təhsil aldığı ali məktəbdə işləmək üçün həmin təhsil ocağının rəhbərliyindən dəvət alır. Və 1968-ci ildən bu günə kimi doğma ali məktəbdə - indiki Bakı Slavyan Universitetində işləyir. Ötən zaman ərzində baş müəllim, dosent, pedaqogika üzrə fəlsəfə doktoru, pedaqogika və psixologiya kafedrasının müdiri və professor vəzifələrində işləyib. Hazırda əmək veteranıdır. İşlədiyi zaman kəsiyində ayrı-ayrı təşkilatlardan, ali məktəb rəhbərlərindən tədris işlərində, ictimai işlərdə fəaliyyətinə, yüksək peşəkarlığına görə təşəkkür məktubları alıb, diplomlara layiq görülüb.

İşlədiyi ötən illər ərzində əməlləri ilə müəllim ləyaqətini yüksəkliklərə qaldıran Nazim müəllimin ən böyük arzusu bir parça çörək, bir içim su və əmin-amanlıq olub. Dünyanın malında tamahı olmayan bu insan həyatın mənasını, ömrünü Vətəninin çiçəklənməsinə, millətinin tərəqqisinə sərf etməkdə görür. Elə bu xarakterinə görə minlərlə tələbəyə dərs demiş Nazim müəllim heç zaman yaddan çıxmayacaq, şagirdləri, tələbələri və onu tanıyanlar tərəfindən hər zaman xatırlanacaq, xoş təəssüratlarla anılacaqdır. Hələ sağ ikən əməlləriylə ürəklərdə özünə əbədi heykəl qurmuş müəllim ömrü buna deyirlər.

İlk baxışda zəhmi ilə seçilən bu insanı tanıdıqca başa düşürsən ki, belə ciddi, sərt görkəmin altında ürəyiyumşaq, bağışlamağı bacaran, müsahibinin bir baxışından ruhi vəziyyətini anlayan təcrübəli bir psixoloq dayanır. Başqa müəllimlərdən Nazim müəllimi fərqləndirən bir cəhəti də onun pedaqoji təcrübəni həyat təcrübəsi ilə vəhdət halında təqdim etməsidir. Nəzəri biliklərin zəngin həyat təcrübəsindən gətirdiyi nümunələrlə vəhdətini yaradaraq fənnin daha asan qavranmasını təmin edir.

O, bəzən tələbənin səhvini üzünə deməklə incitsə də, tez bir zamanda könlünü almağı da bacarır. Ədalətliliyi, müdrikliyi və təmənnasız xeyirxahlığı ilə hamının məhəbbətini qazanmış xaraktercə çox zəngin bir pedaqoqdur.

Tərbiyədə nikbinlik, hörmət və tələbkarlığın vəhdəti prinsipinə üstünlük verən Nazim müəllim əldə etdiyi nəticələrlə digər həmkarlarını təəccübləndirir. Elə bu fəaliyyətin nəticəsidir ki, hər semestrin sonunda bütün tələbələri artıq imtahana hazır olurlar.

Yeri düşəndə tələbələri qeyd edirlər ki, təhsil müddətində ixtisas üzrə qazandıqları biliklərin böyük hissəsinə görə Nazim müəllimə borcludurlar. Nə yaxşı ki, təhsilimizdə hələ də müəllim adının bütün məsuliyyətini daşıya bilən bu cür müəllimlərimiz vardır.

BSU-nun Elmi Şurasının 27 aprel 2017-ci il tarixli iclasının qərarı nəzərə alınmaqla bu ali məktəbin rektorunun əmri ilə Nazim müəllim ictimai əsaslarla pedaqogika və psixologiya kafedrasının professoru vəzifəsinə təyin olunub.

Nazim Mirzə respublikamızda pedaqogika və psixologiya elminin inkişafına öz töhfələrini vermiş alimlərdəndir. Onun pedaqogika və psixologiya elmlərinin aktual problemlərinə həsr olunmuş elmi məqalələrin, dərslik vəsaitlərinin, tezis və proqramların hazırlanmasında əməyi böyükdür. Onun Azərbaycan və rus dillərində müxtəlif illərdə çap olunmuş "Tərbiyənin ailə əməlləri", "Ailə adət-ənənələri", "Məktəbəqədər yaşı olan uşaqların tərbiyəsində ailə adət və ənənələri", "Məktəblilərin ideya-siyasi tərbiyəsi", "Tərbiyədə milli və ümumbəşəri dəyərlərin yeri" və s. çoxsaylı məqalələri, "Gənclərin ideya-siyasi tərbiyəsində ailə adət-ənənələrinin rolu", "Ana dilimiz, əlifbamız, təhsilimiz və konfliktologiya elmi barədə bəzi mülahizələr", "Ömrümüzdən keçən işıq" kimi kitablar tələbə və müəllimlərimiz üçün zəngin mənbə rolunu oynayır. O, Azərbaycan və rus dillərində çap olunmuş onlarca dərs vəsaitinin "Программа спец.семинара по педагогике", "Программа по педагогике", "Программа по ведению в учительскую специальность", "Программа по социальной педагогике", "Программа по педагогике начального образования", "İbtidai təhsil pedaqogikası üzrə proqram" və sair proqramların müəllifi və həmmüəllifidir.

Bir sözlə, ömrünün 55 ilini pedaqoji fəaliyyətə həsr etmiş, Bakı Slavyan Universitetinin professoru Nazim Xancan oğlu Mirzə bu illər ərzində təhsilimizin inkişafına böyük qayğı göstərmiş, yüzlərlə insanın peşə hazırlığında, pedaqoji biliklərə yiyələnməsində əhəmiyyətli rol oynamışdır.

Bu günlərdə 80 yaşının tamam olması münasibətilə görüşüb haqqında yazmaq istədiyimi ona bildirdim. Yenə də xislətinə xilaf çıxmayıb təvazökarlıq edərək razılıq vermək istəmədi. Haqqında yazılacaq bu məqalənin tarixdə qalacağını, gələcək nəslə bir örnək olacağını ona izah edib razılığını aldım.

Ona verdiyim suallardan sonra poetik bir görkəm alıb dərin xəyala dalmışdı. Sakit oturub onu seyr edirdim. Zahirən ona bu yaşı vermək mümkün deyil. Lakin həyatın acılı-ağrılı günləri ona da sirayət edərək qara saçlarını ağartmış, kədərli sifətində kölgələr yaratmış, üzünü insan çöhrəsini nura qərq edən çalın-çarpaz qırışlarla bəzəmişdi. İnsan ömrünün son mükafatı isə belə olur, deyib ulularımız.

Gözlərini məchul bir nöqtəyə dikib sanki olub-keçənləri xatırlayır, uzun illərin arxasından boylanıb, uşaqlıq, yeniyetməlik, gənclik çağlarını yada salır, həyatda qazandığı nailiyyətləri, arzusunda olub əldə edə bilmədiklərini götür-qoy edib xəyal süzgəcindən keçi-



rir, mizan-tərəzi qurub yaşadığı dünyanın haqq-hesabını çəkirdi. Bu, ömrü uzun, yükü ağır dünyanın haqq-hesabını nə mizan-tərəzi çəkib hesablaya bilir, nə də fikirləşən, düşünən insan beyni yönünə-yöndəminə qoya bilir. Dünya belə dünyadır.

Sükutlu anlar keçirdi, mənsə onu xəyaldan ayırmaq istəmirdim. Və nəhayət başını qaldırıb üzümə baxdı. Gözlərinin dərinliyində kədər qarışıq bir sevinc görünürdü, sifəti işığa, nura qərq olmuşdu, dodaqlarında təbəssüm sezilirdi. Hiss olunurdu ki, keçdiyi ömür yolundan razıdı.

Bayaq ona verdiyim suala lakonik olaraq aşağıdakı kimi cavab verdi:

**"Hər bir zəhmət adamı həyatının sonuna doğru getdikcə müdriklik zirvəsinə yüksəlir və özünə də olsa hesabat verməyi vacib hesab edir. Mən də istisna deyiləm. Bir şərtlə ki, mən heç vaxt özümdən razı qalmamışam. Necə yaşadığımı, nə etdiyimizi uşaqlarım, şagirdlərim və tələbələrimdən başqa heç kəs düzgün qiymətləndirə bilməz".**

Mən də öz növbəmdə dağ vüqarlı Nazim müəllimi 80 yaşının tamam olması münasibətiylə təbrik etdim, ona uzun ömür, möhkəm cansağlığı və daha yeni uğurlar arzulayıb yenidən görüşmək üçün ondan ayrıldım.

Redaksiyaya tələsirdim, bu ay Bakıda anormal istilər hökm sürürdü. Dünənki dözülməz bürkünü bugünkü xəzri qovub harayasa aparmış, yerinə bir sərinlik gətirmişdi. Arada əsən xəfif meh ruh oxşayır, insana bir sərməstlik bəxş edirdi. Fikrim başqa yerdə idi, düşünürdüm ki, hər bir insanın özünəməxsus taleyi, özünəməxsus ömür yolu vardır. Çaylara bənzər ömür yolları isə elə çaylar kimi xeyirli, bərəkətli, uzunömürlü, yaddaqalan olur. Nazim müəllimin ləyaqətlə yaşadığı ömür yolu kimi.

**Nizami MİRZƏYEV,**
**Yazıçı-publisist.**